# Şəhid ailələri və müharibə əlillərinə dövlət qayğısı davamlıdır

Sumqayıt Şəhər İcra Hakimiyyəti yanında yaradılmış Əlaqələndirmə Mərkəzinin növbəti iclası keçirilib.

Tədbirdə çıxış edən Sumqayıt Şəhər İcra Hakimiyyəti yanında yaradılmış Əlaqələndirmə Mərkəzinin rəhbəri Gündüz Əliyev bildirib ki, qısa müddət ərzində bir neçə şəhid ailəsi və qazi işlə təmin olunub, onların problemləri həll edilib. Belə ki, ötən həftə ərzində artıq 20 nəfər müxtəlif sahələrdə fəaliyyətə başlayıb. Məşğulluq marafonu çərçivəsində hazırda mərkəzə 30 vakansiya təqdim olunub. G.Əliyev qarşıda duran vəzifələr və gələcək planlar haqqında ətraflı məlumat verib.

Milli Məclisin deputatı Müşfiq Məmmədli bildirib ki, ölkəmizdə



şəhid ailələri, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçular və əlilliyi müəyyən edilmiş şəxslər dövlətimiz tərəfindən daim diqqət və qayğı ilə əhatə olunub. Sumqayıt şəhərində də bu istiqamətdə effektiv işlər həyata keçirilir. Bu baxımdan Sumqayıt Şəhər İcra Hakimiyyəti yanında yaradılmış Əlaqələndirmə Mərkəzinin yaradılması təqdirəlayiq haldır.

M.Məmmədli gələcəkdə əlaqələndirmə mərkəzinin fəaliyyətinin daha da genişləndirilməsi üçün təkliflərlə çıxış edib, tədbir iştirakçılarının suallarını cavablandırıb.

Tədbirdə Sumqayıt şəhərində fəaliyyət göstərən müəssisələrin əməkdaşları da iştirak ediblər. Qaldırılan məsələlərin bir çoxu yerindəcə həllini tapıb.

Qeyd edək ki, əlaqələndirmə mərkəzinin yaradılmasında məqsəd Sumqayıt şəhərində şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin məşğulluğuna və sosial problemlərinin həllinə dəstək olmaqdır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 3 noyabr.- S.7.